# Tariximizin şanlı günü

15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar Qəbələ Rayon Mərkəzləşmiş Kitabxana Sistemində tədbir keçirilmişdir. Tədbirdə qeyd olunmuşdur ki, 1991-ci ilin oktyabr ayında keçmiş SSRİ məkanında baş vermiş ictimai-siyasi hadisələr nəticəsində ittifaqa daxil edilmiş digər milli respublikalar kimi Azərbaycan da öz müstəqilliyinə qovuşdu. Ancaq digər respublikalardan fərqli olaraq Azərbaycanda müstəqilliyin ilk illəri çox ağrı-acılı keçdi.

Bir tərəfdən qonşu Ermənistanın Azərbaycana təcavuzu, digər yandan xarici qüvvələrin vətənimizin zəngin sərvətindən daha çox pay qoparmaq uğrunda apardıqları mübarizə, eyni zamanda səriştəsiz rəhbərlik və daxili çəkişmələr nəticəsində 1990-cı ilin əvvəllərində ölkəmizin dünya xəritəsindən silinmək təhlükəsi yaranmışdı. Hər tərəfdə qeyri-sabitlik, ictimai və dövlət əmlakının talan edilməsi halları tuğyan edirdi.

Belə bir dövrdə müdrik xalqımız ulu öndər Heydər Əliyevi yenidən Azərbaycanda hakimiyyətə dəvət etdi. Xalqın təkidli tələbinə və öz əlilə qurub yaratdığı Vətənin dağılmasına biganə qala bilməyən Heydər Əliyev 1993-cü ilin iyun ayının 9-da Bakıya qayıtdı.15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Heydər Əliyev Azərbaycanı qeyri-sabitlikdən, dağılmaq, parçalanmaq təhlükəsindən xilas etdi. Qısa müddətdə Azərbaycanı inkişaf etməkdə olan dövlətlər sırasına çıxardı. Qədirbilən xalqımız həmin vaxtdan başlayaraq hər il 15 iyun tarixini Milli Qurtuluş Günü kimi qeyd edir.

Sonda tədbbir iştirakçıları Qurtuluş Gününə həsr olunmuş kitab və foto sərgisinə baxıblar.

**«Qəbələ»**

# Əyləncəli proqramla sona çatıb

***Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin və Qəbələ Regional "ASAN xidmət" Mərkəzinin birgə təşkilatçılığı ilə şəhər 3 nömrəli uşaq bağçasında "15 iyun Milli Qurtuluş günü"dür adlı tədbir keçirilmişdir.***



Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunması, respublikada tüğyan edən ictimai-siyasi böhranın aradan qaldırılması istiqamətində yerinə yetirdiyi xilaskarlıq missiyasından danışdılar. Milli Məclisin 15 iyun 1993-cü il tarixli iclasında ulu öndərin Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etməsindən və sonraki illərdə onu həyata keçirməsindən söz açıb, bu gün Azərbaycanın müstəqil, demokratik bir dövlət kimi özünü dünya arenasında tanıtmasından danışıblar.

Tədbir bağça uşaqlarının hazırladığı əyləncəli proqramla sona çatıb.

**İradə RƏSULZADƏ,**
**Qəbələ UADM-nin sosial iş üzrə mütəxəssisi.**
**Səhrab Umuyev (foto).**

# Milli Qurtuluş Gününə həsr edilib

***15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar Həmyerlimiz, görkəmli ədib və hərbçi İsmayıl bəy Qutqaşınlının Xatirə Ev Muzeyində "Açıq qapı" günü keçirilmişdir. Qəbələ şəhərindəki ümumtəhsil məktəblərinin şagirdləri həmin gün muzeyi ziyarət etmiş, ekspozisiya ilə tanış olmuşlar.***

Muzeyin müdiri Çimnaz Müzəffərova 15 iyun Milli Qurtuluş Günü ilə bağlı şagirdlərə geniş məlumat vermişdir. Bildirilmişdir ki, həmin gün ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanda xalqın təkidli tələbi ilə hakimiyyətə gəlmiş, vətənimizi xaosdan, anarxiyadan dağılmaq təhlükəsindən xilas etmişdir.

Sonra şagirdlər vətənə, ulu öndər Heydər Əliyevə, dövlət atributlarına həsr olunmuş şeirlər söyləmişlər.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**

# Paralimpiya idman növlərinin inkişaf etdirilməsi təklif olunub

***Əlil İdmançılara Dəstək İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında*** Absalam Huseynov, Şəhid ailələri Qarabağ Əlilləri Veteranları İctimai Birliyinin Qəbələ Rayon Şöbəsinin



***Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə, Milli Paralimpiya Komitəsinin təşkilatı dəstəyi ilə "Fiziki məhdudiyyətli şəxslərin idman sahəsində bacarıqlarının inkişaf etdirilməsi" layihəsi çərçivəsində Qəbələ QHT-lərin Resurs və Təlim Mərkəzində tədbir keçirilib.***

Tədbirdə RİH-nin məsul işçisi sədri İmran Mustafayev və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları arasında fikir mübadiləsi aparılıb. Çıxış edənlər Qəbələ Olimpiya İdman Kompleksində paralimpiya idman növlərinin də məşqlərinin təşkil edilməsini təklif ediblər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Mərkəzlə tanışlıq

***Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının dəstəyi ilə "Açıq qapı" günü keçirilib.***

***Peşəyönümü işinin təbliği məqsədilə keçirilən "Açıq qapı" günündə Vəndam, Bum, Zarağan, Mirzəbəyli kənd tam orta məktəblərinin müəllimləri və buraxılış siniflərinin şagirdləri iştirak ediblər.***

*Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanına əsasən "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilib. Sənəd hazırlananda Azərbaycanda orta təhsil pilləsi məzunlarının yalnız 11 faizi peşə-ixtisas təhsili müəssisələrinə qəbul olunurdu. Bu, əhalinin təhsilin peşə-ixtisas istiqamətinə marağının az olmasından irəli gəlirdi. Hazırda müvafiq Strateji Yol Xəritəsi çərçivəsində ümumtəhsil müəssisələrində peşəyönümü işi gücləndirilib.*



Mərkəzin direktoru Azad Məmmədov iştirakçılara təhsil müəssisəsi haqqında ümumi məlumat verib. Tədris-istehsalat işləri üzrə direktor müavini Camal Rəsulov təqdimat edərək tələbə qəbulu qaydaları, ilk peşə ixtisaslarının təsnifatı, peşə təhsilinin bir səviyyəsindən digərinə keçid haqqında danışıb. İstehsalat təlim ustaları tədbir iştirakçılarını tədris olunan peşə istiqamətləri ilə tanış ediblər.

Tədbirdə duala bənzər peşə təhsilinə və təliminə aid qısa videoçarx nümayiş olunub.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov turizm sahəsində kadr hazırlığından danışıb.

Sonda ümumtəhsil məktəblərinin müəllim və şagirdləri mərkəzin maddi-texniki bazası ilə tanış olublar.

**"Qəbələ"**

# İstehsal artırılır

Uzun illik fasilədən sonra rayonumuzda baramaçılığın inkişafına diqqət artıtılıb. İstehsalçıların dediklərinə görə ölkəmizə Çin Xalq Respublikasından gətirilən ipəkqurdu toxumları çox yaxşı məhsul verir və bəslənilməsi daha asandır.



Kürd kənd sakini, kümçü Xəyyam Maqsudov da baramanın kənd təsərrüfatı məhsulları içərisində qısa müddət ərzində ərsəyə gələn ən sərfəli məhsullardan biri olduğunu bildirir.

Xəyyam Maqsudov həmkəndliləri Vilyam Aslanov, Pənah Əsədov və Tərlan Aslanovla birlikdə 250 qram ipəkqurduna qulluq edir. Onun sözlərinə görə bu il onlar bəslədikləri ipək qurdlarından 500 kq barama əldə edəcəklər.

Kümçülər yem tədarükü ilə bağlı heç bir çətişmazlıq olmadığını, bəsləmə ilə əlaqədar onlara kəndin icra nümayəndəsi Eyyub Alıyevin yaxından köməklik göstərdiyini bildirirlər.

Baramaçılığın inkişafına böyük dövlət dəstəyi göstərildiyini vurğulayan sakinlər bu il yaş baramanın hər kiloqramına 5 manat subsidiyanın veriləcəyini və hazır məhsul üçün istehsalçılara 4 manat ödəniləcəyini, ümumilikdə, təhvil verdikləri bir kiloqram yaş barama üçün 9 manat alacaqlarını bildirirlər. Onlar qeyd edirlər ki, bu cür qayğı istehsalçılara çox böyük dəstəkdir və qısa zaman ərzində xeyli əlavə gəlir deməkdir. "Orta hesabla bir kümçü mövsüm ərzində 200-300 kiloqram barama təhvil versə, 1800-2700 manat qazanc əldə edəcək, ailələrin gəlirləri artacaq", - deyə Xəyyam Maqsudov bildirib.

**"Qəbələ"**

# Barama təhvilinə başlanılıb

Builki mövsümdə Qəbələ rayonunda yaş barama istehsalının ötən illə müqayisədə iki dəfədən çox artırılaraq 20 tona çatdırılması planlaşdırılır. Barama yetişdirilməsi üçün 102 kümçü ilə müqavilə bağlanılıb, onlara 500 qutu və ya 9,5 kiloqram ipəkqurdu paylanılıb. Hazırda barama qəbulu davam edir. Kümçülər bu günədək qəbul məntəqəsinə 10,7 ton yaş barama təhvil veriblər.

Ötən il isə rayonun kümçüləri 236 qutu ipəkqurdundan 9,1 ton yaş barama əldə etmişlər.

**"Qəbələ"**

# Hidrogen yanacağı ilə işləyən qatarlar

Yaponiyanın "JR Higashi Nihon" dəmir yolu şirkəti 2020-ci ilin ortalarından başalayaraq ekoloji cəhətdən təmiz, hidrogen yanacağı ilə işləyən qatarlardan istifadə olunmasını planlaşdırır.

Həmin qatarlarda elektrik enerjisi hidrogenin atmosferdəki oksigenlə kimyəvi reaksiyası zamanı əldə ediləcək.

Şirkət nümayəndələrinin hesablamalarına görə, qatarlarda quraşdırılan hidrogen çənləri dolu olduğu halda onunla təqribən 140 kilometr məsafəni qət etmək mümkün olacaq.